# Möhtəşəm uğurlar Heydər Əliyev siyasətinin nəticəsidir

## *Masallı rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*





**”Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Masallı rayon təşkilatı oktyabr ayının 13-də Masallı şəhər Heydər Əliyev Mərkəzində tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.**

Masallı rayon Şəhidlər kompleksi də ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb. Sonra ”Ulu Öndər Heydər Əliyev və Azərbaycan mədəniyyəti 100” adlı sərgi ilə tanışlıq olub. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, Ümummilli Lider Heydər Əliyev hər zaman Azərbaycanın tərəqqisi uğrunda çalışmış, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir. O qeyd edib ki, məhz Ulu Öndərin gərgin əməyi və qətiyyətli siyasəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulub, ölkəmiz dünya məkanında öz layiqli yerini tutub. Seyfəddin Əliyev Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 illik dövrün Azərbaycan tarixinin ən qüdrətli, müstəqilliyimizin ən güclü, dövlətçiliyimizin ən möhtəşəm quruculuq mərhələsi olduğunu vurğulayıb.

Masallı rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov Ulu Öndərin öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, Vətəninə və dövlətinə həsr etdiyini, müqəddəs amallar uğrunda müstəsna fəaliyyət göstərdiyini diqqətə çatdırıb. A.Əhmədov vurğulayıb ki, Prezident İlham Əliyev 20 illik prezidentlik dövründə sadə vətəndaşların, şəhid ailələrinin, müharibə əlillərinin yanında olub, onlara mütəmadi qayğı və diqqət göstərib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Anar İsgəndərov Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən, müstəqil Azərbaycan dövlətinin inkişafı naminə müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Yeni Azərbaycan Partiyasının qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan gündən-günə inkişaf edir, yeni nailiyyətlərə imza atır.

Milli Məclisin deputatı Məşhur Məmmədov çıxışında deyib ki, Ulu Öndər Heydər Əliyev xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Xalqımızın xilaskarı, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyaları Azərbaycan xalqının dəyərli sərvətidir. Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Musa Qasımlı çıxışında vurğulayıb ki, bu gün Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında dinamik inkişaf edən, qüdrəti və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan yeni zirvələr fəth edir. Qeyd edib ki, qazanılan bütün nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə Fəxri Fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

Səs.- 2023.- 14 oktyabr, №188.- S.7.